# MÜASİR MEDİA: reallıqlar, gözləntilər, hədəflər

*Milli mətbuatımızın yaranması və formalaşması prosesi XIX əsrin ikinci yarısında regionda gedən mühüm ictimai-siyasi, iqtisadi və mədəni proseslərlə sıx bağlı olaraq başlandı.*

*Milli oyanış tariximizdə müstəsna xidmətləri ilə fərqlənən "Əkinçi" məhz həmin dövrdə Azərbaycan dilində nəşr olunan ilk qəzet olmaqla maarifçi və demokratik ideyalar təbliğ edərək ictimai, siyasi və bədii fikrin inkişafına böyük təsir göstərdi. Azərbaycan ziyalılarında milli mənlik şüurunun formalaşmasının təməlini qoydu.*

*Müasirləşmə, məfkurə saflığı, bəşəri dəyərlərin milli ənənələrlə üzvi vəhdəti, hadisələrin obyektiv işıqlandırılması və digər başlıca prinsiplərdən qaynaqlanan Azərbaycan milli mətbuatı bütün dövrlərdə həqiqət carçısı olub, cəmiyyəti düşündürən problemləri, dövrün qabaqcıl ideyalarını və mütərəqqi fikirlərini əks etdirib, xalqın maariflənməsində, vətənpərvərlik hisslərinin aşılanmasında, milli və ümumbəşəri dəyərlərin təbliğində müstəsna rol oynayıb.*

*Azərbaycan xalqının qədim və mədəni irsə, Şərq və Qərb sivilizasiyalarının qovuşduğu məkanda formalaşmış mədəniyyətə malik olmasına əsaslanan, şanlı tariximizin güzgüsü olan demokratik milli mətbuatımızın özü də mürəkkəb və şərəfli inkişaf yolu keçmiş, milli şüurun və özünüdərkin formalaşdırılmasında böyük rol oynamış, xalqımızın azadlıq, müstəqillik uğrunda mübarizəsinə və Vətən müharibəsindəki qələbəsinə öz böyük töhfəsini vermişdir.*

*Söz, fikir və mətbuat azadlığının olması ictimai-siyasi quruluşundan asılı olmayaraq hər bir ölkədə baş verən proseslərin milli mənafe baxımından müsbət həllində xüsusi önəm kəsb edir. Mövcud dünya ölkələrinin inkişaf tarixinə diqqət yetirsək, hər bir dönəmdə, taleyüklü məsələlərin həllində obyektiv, qərəzsiz, demokratik və azad medianın həlledici rolunu aydın görə bilərik.*




## Ənənəvi mətbuatın qanunvericilik əsaslarının təkmilləşdirilməsi

Hazırda mətbuatımızın coğrafiyası və ifadə vasitələrinin çeşidi zənginləşmiş, rəqəmsal medianın, qəzet və jurnalların şəbəkəsi genişlənmiş, cəmiyyətin ictimai-siyasi həyatında, demokratik proseslərin inkişafında iştirakı və onlara təsir imkanları artmışdır.

Ulu öndər Heydər Əliyev Azərbaycan mətbuatının ictimai-siyasi fikrə təsirini, sosial-iqtisadi həyatımızın inkişafındakı mühüm rolunu və böyük əhəmiyyətini, həqiqətlərin xalqa çatdırılmasında KİV-in əvəzsiz vasitə olduğunu nəzərə alaraq ölkəmizdə söz azadlığının, demokratiyanın inkişafı istiqamətində çox böyük addımlar atdı.

Ulu öndər Heydər Əliyevin imzaladığı 1998-ci il 6 avqust tarixli "Azərbaycan Respublikasında söz, fikir və məlumat azadlığının təmin edilməsi sahəsində əlavə tədbirlər haqqında" fərmanı ilə informasiya vasitələri üzərində sovetlər dövründə yaranmış, AXC-Müsavat hakimiyyəti dövründə daha da möhkəmləndirilmiş senzuranı həyata keçirən Nazirlər Kabineti yanında Mətbuatda və digər kütləvi informasiya vasitələrində Dövlət Sirlərini Mühafizə edən Baş İdarə ləğv edilmiş, hərbi senzura yaradılması haqqında 1992-ci il 16 aprel tarixli fərman və bütün informasiya yayımı üzərində nəzarət tətbiq edilməsi ilə bağlı 1993-cü il 15 aprel tarixli sərəncam qüvvədən düşmüş hesab edilmişdir.

Kütləvi informasiya vasitələrinin imkanlarından ölkəmizdə hüquqi dövlət quruculuğu, vətəndaş cəmiyyətinin formalaşdırılması sahəsində düzgün istifadə edilməsi dövlət siyasətinin əsas məqsədlərindən olduğu üçün 1999-cu il dekabrın 7-də "Kütləvi informasiya vasitələri haqqında" qanun qəbul edildi. Yeni qanunun qəbulu həmin dövrdə mütərəqqi mətbuat ənənələrinin qorunub inkişaf etdirilməsi, müasir beynəlxalq təcrübə ilə zənginləşdirilməsi ilə yanaşı, azad mətbuatın inkişafına zəmin yaratdı.

Mətbuat və informasiya sahəsində münasibətləri tənzimləyən dövlət qurumunun olmadığı şəraitdə ictimai özünütənzimləmə orqanının yaradılması da vacib idi. Bu baxımdan da KİV haqqında qanunvericiliyin tələblərinə əməl olunmasına ictimai nəzarətin təmin edilməsi, elektron və internet KİV-in istehsalı və yayımının tənzimlənməsi, dövlət orqanları ilə KİV arasında əlaqənin və etimadın möhkəmləndirilməsi məqsədilə 20 iyul 2001-ci ildə "Milli Mətbuat, Teleradio və İnternet Şurasının yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin imzaladığı fərman bu sahədə növbəti addım oldu.

Müstəqil Azərbaycanda demokratik mətbuatın formalaşması, azad sözün, fikir və məlumat azadlığının təmin edilməsi, onun qanunvericilik əsaslarının təkmilləşdirilməsi ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır.

Ölkəmizdə media siyasəti formalaşdırılarkən siyasi plüralizmin bərqərar edilməsi, söz və mətbuat azadlığının təmin edilməsi, azad mətbuatın formalaşdırılması əsas prinsiplər kimi müəyyənləşdirildi. Bu sahə üzrə dünyada mövcud olan ən qabaqcıl hüquqi-normativ bazanın öyrənilməsi və Azərbaycan qanunvericiliyinin ona uyğunlaşdırılması sahəsində çox ciddi işlər görüldü.

Sürətlə inkişaf edən internet resursları vətəndaş cəmiyyəti quruculuğunun fəal iştirakçısına çevrilərək cəmiyyətimizin informasiyaya olan ehtiyacının ödənilməsində əhəmiyyətli rol oynayır. Yazılı mətbuat qarşısında duran vəzifələri yeni informasiya resurslarının ardıcıl inkişafı ilə şərtlənən mürəkkəb rəqabət mühitində yerinə yetirir.

Müasir medianın daşıdığı əsas missiya cəmiyyətin marağında olduğu informasiyanı ona obyektiv və dürüst çatdırmaqdır. Nəzərə alınmalıdır ki, müasir cəmiyyət artıq informasiyanın sırf passiv istehlakçısı deyildir, özü sosial şəbəkələr vasitəsilə informasiyanın istehlakçısına və yayıcısına çevrilir.

İnteqrasiya proseslərinin dərinləşdiyi çağdaş dövrdə hər kəsin müxtəlif yollarla informasiya əldə etməsi artıq reallıqdır. Şərqlə Qərb arasında dialoqun həmişəkindən daha aktual olduğu zəmanəmizdə insanların obyektiv, qərərsiz, onların milli və dini hisslərini təhqir etməyən, təhrif olunmamış informasiyalar ala bilməsinə böyük ehtiyac var. Bu halda insanlar təkcə öz ölkəsində deyil, ümumən dünyada baş verən hadisələri doğru-düzgün qiymətləndirə bilərlər. Çünki siyasi qarşıdurmalar, separatçılıq, transmilli cinayətkarlıq və dini ekstremizm kimi təhlükələrlə üzləşən bəşəriyyətin obyektiv və qərəzsiz informasiyaya daha çox ehtiyacı var. Bu, ölkələrin bir-birini daha yaxşı tanımasına, onların yaxınlaşmasına xidmət edər.

İndi ölkəmiz sürətlə inkişaf edir, demokratikləşmə prosesi dərinləşir və cəmiyyət həyatının bütün sahələri yeniləşir. Bütün bunlar milli mətbuatımızın qarşısında yeni vəzifələr qoyur.

İstənilən ölkədə internetdən istifadənin sərbəstlik dərəcəsi həmin dövlətin söz və ifadə azadlığına yaratdığı imkanların genişliyinin göstəricisidir. Bu mənada Azərbaycan azad internetin olduğu, internet istifadəçilərinin sayının daim artdığı ölkələrdəndir. Bu gün beynəlxalq birliyin fəal üzvü olan Azərbaycan sürətlə müasirləşir.

Keçirilən müzakirələrdə internet azadlığının həm də insan hüquqlarına qarşı təhlükə olduğu qeyd olunur. Müasir medianın, xüsusilə internetin tam azad olduğu, yetərincə demokratiya təcrübəsi olan ölkələrin ifrat sərbəstlikdən şikayətlənməsi anlaşılan olsa da, bu hallar mövcuddur. Azad mediadan istifadə hər bir kəsin haqqı olsa da, bu zaman digər insanların hüquqlarına hörmətlə yanaşmaq yaddan çıxmamalıdır. Təəssüflər olsun ki, son dövrlər qeyri-dəqiq informasiya, böhtan, təhqir, insana hörmətsizlik, separatçılıq, ekstremist çağırışlar internet məkanında ciddi problemə çevrilməyə başlamışdır. Bura dünya güc mərkəzlərinin internetdən həm də total izləmə şəbəkəsi kimi istifadəsini əlavə etsək, vəziyyətin nə qədər kritik olmasını təsəvvür etmək çətin olmaz.

> *Hazırda qalib ölkə mətbuatının qarşısında duran əsas vəzifə postmüharibə dövründə həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, qələbənin yaratdığı emosional potensialın məqsədyönlü şəkildə reallaşdırılması və iqtisadi, siyasi, hətta ideoloji cəhətdən istifadə imkanlarının səfərbərliyi işində cəmiyyətə informasiya təminatı ilə yardımçı olmaqdan ibarətdir.*

Yarana biləcək fəsadların qarşısını almaq üçün məhdudiyyətlərin qoyulması insan hüquqlarına, söz, mətbuat, ifadə azadlığına, nəhayətdə, demokratiyaya zidd olacaqdır. Bu səbəbdən də rəqəmsal dünyamızda ayrı-ayrı şəxslərin, təşkilatların və həmçinin dövlətlərin də azad media (internet) istifadəçiliyində demokratik meyarlara əməl etməsində məsuliyyətlərini qat-qat artırması tələb olunur. Qeyd edək ki, səmərəli nəticələr əldə etmək üçün, sadəcə, mənəvi məsuliyyət deyil, ilk növbədə hüquqi məsuliyyətlər müəyyənləşdirilməlidir.

## İnformasiyalaşmış cəmiyyət

Qloballaşmış müasir dünyada ən qabaqcıl texnologiyalara yiyələnən və onu mənimsəyən, cəmiyyətin hərtərəfli inkişafına sərmayə qoymaqla ona təkan verən ölkələrin planetar miqyasda rəqabət potensialı artır. İnformasiya texnologiyalarının çox yüksək sürətli inkişafı müasir dövrün tələbi olduğundan bu faktorlara önəm verməyən ölkələr özlərinin sosial inkişaf sürətinə maneə yaratmaqla yanaşı, həm də milli təhlükəsizliklərini risk altında qoyurlar.

Ötən əsrin 60-cı illərindən sonra elmin və texnologiyanın tərəqqisi nəticəsində sənaye cəmiyyəti yeni inkişaf stimulu əldə etdi. Tədqiqatçılar tərəfindən "sənayeləşmə" termininə "post" sözönü əlavə olundu. Beləliklə də bəşər cəmiyyətinin inkişafında sənayedən əvvəlki (aqrar), sənaye və postsənaye mərhələləri müəyyənləşdi. Bir çox müəlliflər isə "postsənaye", başqa sözlə desək, "informasiya cəmiyyəti" haqqında tezislər söyləmişdilər.

İnformasiya cəmiyyəti də ümumplanetar bir sistemdir və müasir planetar sistemə alternativ olması üçün təkcə informasiya-kommunikasiya texnologiyalarının nailiyyətlərinə əsaslanmayıb, həm də ictimai təsisatların strukturunu dəyişməlidir. Bu cəmiyyət, eyni zamanda özünüinkişaf qabiliyyətinə də malikdir. İnformasiya cəmiyyətinin bərqərar olması ictimai münasibətlərin sosial təbiətinin keyfiyyətcə dəyişməsi, formalaşması isə qlobal xarakter daşıdığından ölkəmizin informasiya cəmiyyətinə daxil olması labüd idi. Bunun üçün ilkin şərtlər, imkanlar və real yollar müəyyənləşdirildi. İnformasiya sivilizasiyasının maddi və mənəvi üstünlüklərindən istifadə nəticəsində modernləşmiş ölkəmiz tədricən Avropa geoiqtisadiyyatının və regional geosiyasətin intellektual və informasiya mərkəzinə, onun mühüm tərkib hissəsinə transformasiya olunur. Sabit sosial-iqtisadi şəraitdə və iqtisadiyyatın şaxələndirilməsi, səmərəli kreativ iqtisadi islahatlar nəticəsində Azərbaycanda informasiya cəmiyyətinin əsas cizgiləri və əlamətləri formalaşır. İnformasiya-kommunikasiya texnologiyalarının (İKT) ardıcıl və dinamik inkişafına dair milli strategiyada informasiya cəmiyyətinin yaradılması başlıca məqsəd, İKT isə həyatın bütün sahələrinin inkişafına təsir edən əsas faktor, iqtisadiyyatın mühüm bir sektoru kimi müəyyənləşmişdir.

Hazırda İKT sektorunun sabit və müntəzəm inkişafının təmini üçün kosmik sənayenin inkişafı və yüksək sürətli internetdən istifadə imkanları genişləndirilir. Cənubi Qafqazda 2010-cu ildən fəaliyyətə başlayan ilk və yeganə peyk operatoru olan Azərkosmos hazırda iki telekommunikasiya peyki və bir - Yer səthinin məsafədən müşahidəsi peyki vasitəsilə dünya üzrə tərəfdaşlara yüksək keyfiyyətli peyk xidmətləri təqdim edir.

İKT-dən geniş istifadə mədəniyyətinin, ictimai həyatın gələcəyi üçün yeni intellektual bazanı formalaşdırmaqla informasiya cəmiyyətinə keçidə iqtisadi, sosial və siyasi zəmin yaradır. Pandemiya dövründə rəqəmsal texnologiyanın tətbiqi ilə "online" rejimdə çalışmaq informasiya cəmiyyətinin quruculuğu prosesini daha da sürətləndirdi. Hazırda bəşəriyyət nəhəng informasiya məkanı ilə təmasdadır. Bu məkanda qazanılacaq uğur informasiya cəmiyyəti qurmaq sahəsindəki bacarıqlardan asılıdır.

Müasir dövrdə kompüterlərin, robotların nələrə qadir olduğu, necə böyük əhəmiyyət kəsb etdiyi hamımıza bəllidir. Onlar mənəvi cəhətdən köhnəlmiş texniki avadanlıqları sıradan çıxararaq əmək məhsuldarlığını yüksəldir, yeni-yeni tətbiq sahələri yaradırlar. Onların köməyi ilə çox mürəkkəb əməliyyatlar bir an içərisində yerinə yetirilir, lazımi informasiya bir neçə saniyə ərzində əldə olunur (əvvəlki kimi kitabxana kataloqlarında axtarmağa saatlarla vaxt tələb olunmur), audio və videoinformasiyaların sürətlə işlənmə sistemləri yaradılır, təkcə mətn, qrafik və səslə ötürmə deyil, başqa ölkələrdəki məlumat bazalarına daxil olmaq imkanı yaradılır, avtomatik idarəetmənin çevik sistemləri formalaşır, müasir maliyyə-bank sistemlərinin dəqiq, faydalı işləməsi təmin edilir və s. Məhz bu əlamətləri özündə ehtiva edən xüsusi bölmənin olması informasiya cəmiyyətini ənənəvi cəmiyyətdən fərqləndirən əsas xüsusiyyətlərdir. Həmçinin bu cəmiyyətdə əqli əməyin, vətəndaşların peşəkarlığının səviyyəsi durmadan artır, elmin cəmiyyətə xidmət əmsalı yüksəlir. Bu halda vətəndaşların həyat, cəmiyyət haqqında təfəkkürləri yüksəlir, öz məsuliyyətlərini daha dərindən dərk etmələri təmin edilir. Nəticədə informasiya cəmiyyətində sabitliyin daha möhkəm olmasına şərait yaradılır.

İnformasiyalaşmış cəmiyyət ənənəvi cəmiyyətə nisbətən iqtisadi cəhətdən daha zəngin olmaqla dünya təsərrüfatına çox tez inteqrasiya olunur. Bu cəmiyyət insanların qlobal proseslərdən baş açmasını, əldə olunan biliyin, zehni əməyin milli mənafeyə, dövlət mənafeyinə lazım olan istiqamətə yönəldilməsini tənzimləyir. Əsas qayələri insanların daha varlı (zəngin), daha sərbəst və öz məramınca yaşamasının təmin olunmasına xidmət olan texnokratik, demokratik və informasiya cəmiyyətlərindən ilk ikisi ayrı-ayrılıqda mövcud ola bilər. Lakin informasiya cəmiyyətinin ilkin və əsas elementlərinin olmadığı şəraitdə digər iki cəmiyyətin mövcudluğundan söhbət gedə bilməz. Dünya təcrübəsi də göstərir ki, inkişaf etməyin, sabitlik yaratmağın kəsə yolu demokratiyanın əhatə dairəsini tədricən genişləndirməklə mükəmməl informasiyaya malik texnokratik cəmiyyətə keçiddir. Texnokratik cəmiyyət isə inkişafın müəyyən fazasında təbii şəkildə demokratik informasiya cəmiyyətinə transfer olur. Demokratik informasiya cəmiyyəti və ya informasiyalı demokratik cəmiyyət isə ideal cəmiyyət üçün möhkəm təməldir. Ölkəmizdə informasiyalı vətəndaşın üstünlüyünün təmin edilməsi, texniki savadın artırılması, texnologiyanın ölkə iqtisadiyyatında və ümumilikdə cəmiyyətdə aparıcılığını təmin edən qanunvericilik aktlarının qəbulu informasiya texnologiyalarının vətəndaşların mənalı yaşamını təmin edən əsas amilllərdəndir.

Plüralizm və aşkarlıq zamanında qazanılan dəqiq və zəngin informasiya, biliklə insan əməyi yaradıcı əməyə çevrilir, onun fəallığını yüksəldir. Bir sözlə, informasiya cəmiyyəti yüksək texnologiyalı cəmiyyət, maddi sərvət bolluğu olmaqla vətəndaşların və dövlətin mənafeyinə xidmət edir.

## Demokratik cəmiyyətdə mətbuat

Son dövrlər mətbuata xüsusi diqqətin artırılması, mətbuat haqqında diskussiyalar, müzakirələr, fikir mübadilələri, polemikalar və mövzuya elmi-nəzəri təhlili yanaşma bütövlükdə cəmiyyətdə gedən çoxşaxəli ictimai-siyasi və mədəni-mənəvi proseslərlə bağlıdır. Milli Konstitusiyamızda təsbit olunmuş fikir və söz azadlığı, siyasi plüralizm şəraitində mətbuatın uğurları, problemləri mövcud cəmiyyətin inkişaf səviyyəsi ilə sıx bağlıdır. Bu gün ölkəmizdə mətbuatımızın mütərəqqi ənənələri qorunmaqla qabaqcıl beynəlxalq təcrübə ilə zənginləşdirilir. Ölkəmizdə hüquqi dövlət quruculuğu, demokratik informasiya cəmiyyətinin formalaşdırılması sahəsində medianın imkanlarından geniş istifadə olunur.

Demokratik cəmiyyətlərdə söz azadlığı, kütləvi informasiya vasitələri, mətbuat mühüm rol oynayır. Söz azadlığı iqtisadi azadlıqdan sonra gəlsə də, əlçatanlıq baxımından əvvəldədir. Çünki istənilən cəmiyyət müşahidəçi və tənqidçi mövqeyində olmağa meyillidir. Belə halda isə onları aldatmaq və ram etmək daha asan olur. Çünki "Söz azadlığı"nın parıltısı ilkin tələb olunan nəzəri və praktik bilik, bacarıq-vərdişlərini unutdurduğundan söz meydanına giriş asanlaşır. Beləliklə də kütləni reallığa cəlb etmək çətin olsa da, sözlə ram etmək asan olur. Ancaq ürəklərindən keçənləri eşitmək istəyirlər. Bu yerdə alman filosofu Şopenhaurun bir fikrini xatırlatmaq istərdim: İnsan elə məxluqdur ki, onu aldatmaq qeyri-mümkündür. İnsan özünün eşitmək istədiyini eşidərkən aldanır.

Nəticədə zahirən bir-birinə bənzəsə də, köklü surətdə fərqli olan eyni parametrlərə (çoxluğun mövqeyinə, fikir və söz azadlığına) istinad edən iki fərqli cəmiyyət modeli mətbuatda da təzahür edir. Biri kütlə psixologiyasına söykənir, kortəbii hərəkatlardan qaynaqlanır, digəri isə təkamül yolu ilə şüurların inkişafına istinad edən islahatçı və qurucu modeldir.

Birinci model mətbuatda söz fikirdən əsasdır və təhlili fikir formalaşmamış sözlər öz işini görür. Bu halda sensasiyalı məqalələr, yalan, şantaj, təhqir və s. kimi mənfi meyillər mediada geniş meydan alır, xalqın əsrlərlə qoruyub saxladığı ümdə əxlaqi keyfiyyətlər, dəyərlər fərqinə varılmadan bada verilir, bir sözlə, mətbuat özü olmur, psevdomətbuata çevrilir.

İkinci modeldə fikrə, elmi analizə əsaslanan, insanların təfəkkür mədəniyyətini inkişaf etdirən media formalaşır. Bu halda isə mətbuatda elmi təhlildən, sosial gerçəklikdən qaynaqlanan həqiqi fikrin ifadəsi olan söz yüksək siyasi şüurluluq tələb edir, cəmiyyət isə hərtərəfli tərəqqiyə nail olur. Milli mənafelərə xidmət edən əsl mətbuatın yaranması zamanı sərf olunan milli dəyərlər deyil, zəhmət, ilkin intellektual potensial olur. Əsas meyar isə milli mənafeyin qorunması, dövlətçiliyin möhkəmləndirilməsidir.

Milli demokratik mətbuatımızın gələcək inkişafının təməli olan "Əkinçi" qəzeti təkamül yolunu seçərək şüurlarda "əkinçilik"lə məşğul idi. Məhz həmin dövrdən qabaqcıl ideyaların, mütərəqqi fikirlərin, maarifləndirici ideyaların əsası qoyuldu. Bu gün milli mediamızda yaşanan və davam edən gözəl ənənələr o zamanlar təməli atılanların bəhrəsidir.

Əfsuslar olsun ki, cəmiyyətdə olan problemlər bəzən (qüsursuz, nöqsansız, problemsiz ideal cəmiyyət mövcud deyil) elə qabardılır ki, real imkanlar, pozitiv, işıqlı tərəflər unudulmaqla tənqiddən daha çox şantaja meyil edilir. İctimai rəyin güclü silah olduğunu unudaraq bəzi məqalələrdə tənqidin kəskinliyi və satiranın gücü eyforiyasına qapılıb kimə və nəyə xidmət etdiyimizin də fərqinə varmırıq. Nəticədə əks-effekt əmələ gəlir.

Artıq dövr başqa, şüurluluq səviyyəsi fərqli, əhalinin savadlılığı yüksək olduğundan bizi yaxşı cəhətlərimizə görə tanıdan məqalələrə, gerçəkliyə söykənən, üstünlükləri üzə çıxaran, müsbət nümunələrə əsaslanan yazılar əksəriyyət təşkil etməlidir. Belə olduqda xarici ölkələrdə yerli mətbuata istinadən çap olunan məqalələrdə haqqımızda yaxşı cəhətlərimizdən söz açılan yazılar çoxalar.

Beynəlxalq miqyasda siyasi və mədəni-mənəvi hegemonluq üçün şərait yaradırıq. Hər hansı ölkənin milli yazarının öz ölkəsinin nöqsanlarından və problemlərindən bəhs edən məqaləsini və əsərini bəzi qlobal media təmsilçilərinin bəh-bəhlə müxtəlif dillərə tərcümə olunmaqla çap edib yaydığının da şahidiyik. Qeyd etdiyimiz kimi, bu, qlobal səviyyədə şüurlara təsir edib ictimai rəy yaratmaqla hegemonluğa xidmət edir.

Ona görə də medianın şüurlara təsir imkanları baxımından fikir, söz azadlığından və müstəqillikdən yeni-yeni bəhrələnən milli mətbuatımızı artıq qərarlaşmış strateji yönümü olan, məqsədyönlü surətdə idarə olunan bir çox beynəlxalq mətbuatın yad təsirlərindən qorumalıyıq.

Demokratik informasiya cəmiyyətində ictimai rəy güclü bir silahdır. İqtisadi və mədəni-mənəvi imperializmin "demokratik" fəaliyyəti üçün beynəlxalq səviyyədə ictimai rəylə manipulyasiyaya imkan yaratmalı deyilik. İnformasiyanın törətdiyi cinayətlərin qarşısını almaq naminə milli mətbuatımız ictimai şüurun müstəqilliyimizin qorunub saxlanması, dövlətçiliyin möhkəmləndirilməsi, milli mənafelərə xidmət istiqamətində köklənməsinə çalışmalıdır. Bütün zamanlarda və məkanlarda mətbuatın ümdə vəzifələrindən biri də maarifçilik, milli mənəviyyatın təbliği olması da əsas faktdır.

Hazırda qalib ölkə mətbuatının qarşısında duran əsas vəzifə postmüharibə dövründə həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, qələbənin yaratdığı emosional potensialın məqsədyönlü şəkildə reallaşdırılması və iqtisadi, siyasi, hətta ideoloji cəhətdən istifadə imkanlarının səfərbərliyi işində cəmiyyətə informasiya təminatı ilə yardımçı olmaqdan ibarətdir.

Bəzən bizə elə gəlir ki, hər hansı proseslə, məsələ ilə biz məlumatlıyıqsa və ya xəbərdarıqsa, deməli, hamı - kürreyi-ərz bunu bilir. Əslində isə kənarda, digər ölkələrdə bu barədə məlumat belə yoxdur, olsa da səhih deyil, çox bəsit məlumatdır.

Qəbilə, tayfa təfəkkürlü mənfur qonşularımız hazırda tamamilə səhv, təhrif edilmiş informasiyalar, öz xeyirlərinə feyk xəbərlər yayırlar. Belə vəziyyətdə görüləcək işlərin səviyyəsi daha da artır. Çünki bir var ki, məlumatı olmayana nəsə deyəsən, biri də var ki, feyk xəbərlə "zəhərlənmiş" beyinlərdəki fikri sonradan düzgün istiqamətə yönləndirəsən, ikincisi çox ağrılı, uzun sürən prosesdir.

Yeri gəlmişkən, qeyd edək ki, Azərbaycanın yeni informasiya məkanına daxil olması, onun dünyada tanıdılması, erməni lobbisinin məkrli niyyətləri sayəsində düşdüyü informasiya blokadasından çıxarılması məhz ulu öndər Heydər Əliyevin səyləri ilə mümkün olmuşdur.

Ölkə başçısı, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin apardığı qlobal miqyaslı, uzaqgörənliyə hesablanmış ədalətli və həqiqəti söyləyən informasiya mübarizəsinin beynəlxalq miqyasda ictimai rəyin formalaşdırılması baxımından nəticələri öz bəhrəsini verməkdədir. Belə ki, mötəbər beynəlxalq qurumlarda, təşkilatlarda, güc və beyin mərkəzlərində, əksər ölkələrdə bədnam qonşularımız tərəfindən təşkil olunan qərəzli layihələrin heç biri dəstək ala bilmir və fiaskoya uğrayır. Vətən müharibəsi dövründə Qoşulmama Hərəkatına üzv ölkələrin BMT-nin məşhur 4 qətnaməsinin ləğvinə səs verməmələri buna bariz nümunədir. Son dövrlər baş verən belə hallar kifayət qədərdir.

Yeri gəlmişkən qeyd edim ki, "hay"ların xarakterində öz maraqlarından daha çox başqasına ziyan vurmaq prinsipi əsas yer tutur. Təxminən 30 il davam edən işğaldan sonrakı vəziyyətin müşahidəsi də bunu bir daha təsdiq etdi, yəni işğal olunan torpaqlardan belə maraqları naminə istifadə etməkdən daha çox dağıtmaq, məhv etmək, tar-mar etmək əsas prinsipləri olub.

> *Son dövrlər mətbuata xüsusi diqqətin artırılması, mətbuat haqqında diskussiyalar, müzakirələr, fikir mübadiləri, polemikalar və mövzuya elmi-nəzəri təhlili yanaşma bütövlükdə cəmiyyətdə gedən çoxşaxəli ictimai-siyasi və mədəni-mənəvi proseslərlə bağlıdır.*

## Çağdaş islahatlar

Son illər ölkəmizin sürətli sosial-iqtisadi inkişafı, beynəlxalq aləmə uğurlu inteqrasiyası, qlobal informasiya məkanını formalaşdıran komponentlərin mövcudluğu və informasiya sektorundakı yeni inkişaf meyilləri ənənəvi mətbuatın fəaliyyətinin genişləndirilməsi ilə bağlı təxirəsalınmaz tədbirlərin həyata keçirilməsini zəruri etdi.

44 günlük Vətən müharibəsi dövründə Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin dünyanın bir çox televiziya kanallarına, informasiya agentliklərinə və qəzetlərinə, o cümlədən "Əl-Cəzirə", "Əl-Ərəbiyə", "Euronews", "CNN International", "Haber Global", "NTV", "BBC News" və s. televiziya kanallarına, "İnterfaks", "EFE" və s. agentliklərinə, "Figaro", "la Repubblica" və s. qəzetlərinə verdiyi müsahibələr xalqımızın haqq səsinin dünyaya çatdırılmasında nümunəvi örnək oldu. Yuxarıda qeyd etdiyimiz kimi, bu feyk xəbərlərlə "zəhərlənmiş" beyinlərdəki fikri düzgün istiqamətə yönləndirməyə xidmət edən çox məşəqqətli və çətin prosesin öhdəsindən layiqincə gəlmək idi. Dövlət başçısının ölkəmizə qarşı yönəlmiş informasiya təxribatlarının qarşısının alınmasında, haqq səsimizin dünya ictimaiyyətinə çatdırılmasındakı fədakarlığı medianın fəaliyyətində vətənpərvərlik hisslərini daha da gücləndirdi.

Vətən müharibəsindəki Şanlı Zəfərimiz medianın fəaliyyətində ruh yüksəkliyi ilə yanaşı, yeni bir canlanma yaratdı. Eyni zamanda Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın müharibə dövründə, xüsusilə də müharibədən sonra işğaldan azad edilmiş bölgələrə səfərləri zamanı sosial media hesabları vasitəsilə paylaşımları mətbuata güclü dəstək olmuş, ölkə həqiqətlərinin obyektivlik, peşəkarlıq və prinsipiallıqla dünyaya çatdırılması erməni vandalizminin əyani nümayişi baxımından media orqanlarının işinə əlavə güc vermişdir.

Bütün dünyanı əhatə edən vahid informasiya məkanında yeniliklərin intensiv xarakter aldığı, kommunikasiya texnologiyalarının geniş tətbiq olunduğu müasir dövrdə media sahəsində keyfiyyət dəyişikliklərinə ciddi ehtiyac vardır. Buna görə də modernləşmə, rasionallıq, yeni informasiya-kommunikasiya texnologiyalarının və innovasiyaların tətbiqini stimullaşdırmaq məqsədilə Azərbaycan Respublikası Prezidentinin 12 yanvar 2021-ci il tarixli Sərəncamı ilə "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi" - MEDİA yaradıldı. Agentliyin yaradılması ölkəmizdə müasir medianın formalaşması və inkişafı üçün atılan məqsədyönlü addımların ardıcıl olmasını təsdiq edir. Əminik ki, MEDİA öz öhdəsinə düşən vəzifələri layiqincə yerinə yetirəcək və aparıcı trendlərin izlənilməsi, innovativ təkamülün yaratdığı imkanlardan medianın daha çox bəhrələnməsi, cəmiyyətin obyektiv və peşəkar şəkildə məlumatlandırılmasına xidmət edən fəaliyyətlərin stimulaşdırılması üçün ciddi addımlar atacaqdır.

Medianın qlobal informasiya məkanında mühüm yer tutmasına, potensialına, onun maddi-texniki bazasının gücləndirilməsinə dövlət başçısının hərtərəfli və müntəzəm dəstəyi vardır. Media fəaliyyətinin qanunvericilik bazasının təkmilləşdirilməsi, media subyektlərinin müstəqilliyinin daha etibarlı şəkildə müdafiəsi, bu sahədə səmərəli beynəlxalq əməkdaşlıq platformalarının yaradılması məqsədilə normativ-hüquqi baza yenilənərək "Media haqqında" yeni Qanun 30 dekabr 2021-ci ildə qəbul edildi. Müasir tələblərə cavab verən Qanunun qəbul edilməsində əsas məqsəd yeni nizamlama mexanizmlərini müəyyənləşdirməklə informasiya məkanının təhlükəsizliyini təmin etmək, rəqabət qabiliyyətini artırmaq, həmçinin jurnalistika peşəsinin nüfuzunun yüksəldilməsinə şərait yaratmaqdır.

Çap mediasının operativliyinin və keyfiyyətinin yüksəldilməsi, maddi-texniki bazasının gücləndirilməsinə şərait yaradılması üçün Nazirlər Kabinetinin 2022-ci il 13 may tarixli Qərarı ilə qəzet, jurnal və onların istehsalı ilə bağlı kağız məhsullarının idxalı və satışı ƏDV-dən azad edildi. Bu Qərarla çap mediası məhsullarının maya dəyəri və istehsal xərcləri azaldılmaqla onların inkişafında canlanma yaradıldı. Çap mediasının müasir simasının formalaşmasına konseptual yanaşılmaqla ənənəvi medianın rəqəmsal mediaya inteqrasiyasını dəstəkləmək naminə məqsədyönlü tədbirlər həyata keçirilir.

Çap mediası məhsullarının abunə və satışının təşkilinə dəstək göstərilməsi istiqamətində tədbirlərin görülməsinin yeni yaradılmış MEDİA-nın nizamnaməsində agentliyin vəzifəsi kimi müəyyənləşdirilməsi mövcud nöqsanların da aradan qaldırılmasına ümidlər yaratmaqla bu sahənin inkişafının və sərbəst fəaliyyətinin təmin edilməsi məqsədilə ardıcıl tədbirlərin həyata keçiriləcəyindən xəbər verir.

Zənnimizcə, bundan sonra Azərbaycan qlobal informasiya məkanında daha geniş təmsil olunacaq, ölkəmiz haqqında obyektiv informasiyanın yayılma coğrafiyası genişlənəcəkdir.

İnteqrasiya və qloballaşmanın vüsət aldığı indiki dövrdə mətbuatımızın əsas məqsədi texnoloji imkanlardan maksimum yararlanmaqla Azərbaycan haqqında obyektiv məlumatları çevik şəkildə beynəlxalq ictimaiyyətə çatdırmaq və dünyada baş vermiş hadisələr barədə cəmiyyətimizi hərtərəfli məlumatlandırmaqdır. Qəzetlərin elektron versiyası xarici ölkələrdə izlənildiyindən bu işdə onların da fəaliyyəti önəmlidir.

Elektron məlumatların və intellektual mülkiyyətin qorunmasında müəyyən risklərin mövcud olması informasiya təhlükəsizliyini gündəmə gətirir. Son dövrlər bu istiqamətdə də dövlətimiz tərəfindən xüsusi sənədlər qəbul olunmaqla lazımi tədbirlər həyata keçirilir.

Müasir dövrdə qloballaşmadan qaynaqlanan texnoloji vasitələrlə müxtəlif dövlətlərdə yaşayan insanların bu və ya digər məsələlərə dair fikirləri ictimailəşsə də, ümumilikdə bu, cəmiyyətin düşüncələrini əks etdirmir. Ona görə də ənənəvi media təşkilatları bu düşüncələri öyrənərək, öz işlərini daha intensiv şəkildə qurmalı, bütün cəmiyyəti düşündürən problemləri ortaya qoymalı, insanlara daha obyektiv xəbərlər çatdırmalıdır.

**Hümbət MUSAYEV.**